

**Ağayev Yusif Mürsəl oğlu**

Yusif Ağayev orta təhsilini Bakı şəhərində almış, 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında çalışır. 2015-ci ildən elmlər doktoru proqramı üzrə elmi fəaliyyətini davam etdirir. 2006-cı ildən tarixdən filologiya üzrə fəlsəfə doktorudur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurası tərəfindən müəyyən olunmuş qaydada Yusif Ağayevə müsabiqə yolu ilə 11 iyul 2017-ci il tarixində "Dillər" kafedrasında dosent vəzifəsinə təyin edilmişdir.

Elmi-pedaqoji iş stajı 7, əmək ştajı isə 19 ildir. 21 elmi və tədris-metodiki işin müəllifidir. Onlardan 14 elmi məqalə, 1 məruzə materialı, 1 fənn proqramı, 1 dərs vəsaiti, 4 monaqrafıyadır.

Qeyd olunanlar içərisində aşağıdakı elmi və tədris-metodiki materialları göstərmək olar: "Böyük Şərq: mədəni irsimizin kökləri" 2006, "Müsəlman intibahı və ya mədəniyyətlərin qovşağı" 2009, "Dövlət idarəçilik sistemində mənəvi mədəniyyətin rolu" 2010, Səmərəli dövlət idarəçiliyi: zamanın çağırışları mövzusunda beynəlxalq elmi konfransın materialları 2012, "Mədəniyyətlərarası dioloqun inkişafında Heydər Əliyevin rolu" 2015, "Sivilizasiyalar və mədəniyyətlərarası dioloqda üçbucaq: tarixi ənənə, səmərəli idarəetmə və insan potensialı" 2016, Uluslararası türk dünyası egitim bilimləri və sosyal bilimlər Kongrese Ankara-2016, "Mədəniyyətlərarası dioloq prosesinin təmin olunması problemi-2017 və digər elmi əsərlər nəşr edilib.